<table>
<tr><td rowspan="10">Ümumi məlumat</td><td>Fənnin adı, kodu,kreditlərin sayı</td><td>EDU 306 Təhsilin tarixi və fəlsəfi əsasları, 6 AKTS</td></tr>
<tr><td></td><td></td></tr>
<tr><td>Departament</td><td>Təhsil</td></tr>
<tr><td>Proqram (bakalavr, magistr)</td><td>Bakalavr</td></tr>
<tr><td>Tədris semestri</td><td>2023/24-cü tədris ilinin yaz semestri</td></tr>
<tr><td>Fənni tədris edən müəllim (lər)</td><td>Ph.D Ruslan Xəlilov</td></tr>
<tr><td>E-mail:</td><td>ruslan.khalilov@khazar.org</td></tr>
<tr><td>Telefon:</td><td></td></tr>
<tr><td>Mühazirə otağı/Cədvəl</td><td></td></tr>
<tr><td>Məsləhət saatları</td><td>Razılaşdırılaraq təyin etmə ilə</td></tr>
<tr><td>Tədris dili</td><td colspan="2">Azərbaycan</td></tr>
<tr><td>Fənnin növü (məcburi, seçmə)</td><td colspan="2">Məcburi</td></tr>
<tr><td>Ədəbiyyat</td><td colspan="2"><u>Əsas:</u><br>1) Gültekin Mehmet. Təhsil elminə giriş. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2018.<br>2) Mühazirə qeydləri.<br>3)Kemal Aytaç.Avrupa eğitim tarihi.Marmara Üniversitesi,1999.<br>4) Ornstein AC, Levine DU, Gutek G, Vocke DE. Foundations of education. Wadswoth Cengage learning: 2011.<br>5) Rüstəmov Fərrux. Pedaqoqika tarixi. Bakı: Nurlan, 2006.<br>6) Abbasov Akif, Məmmədova Lalə, İradə Əmirəliyeva. Pedaqoqika nəzəriyyəsi və tarixi. Bakı,2022<br><br><u>Əlavə:</u><br>1) Curren, Randall, ed. A Companion to the philosophy of education. Oxford: Blackwell publishing, 2003.<br>2) Smeyers, Paul, ed. International handbook of philosophy of education. Cham: Springer, 2018.</td></tr>
<tr><td>Kursun təsviri</td><td colspan="2">Semestr müddətində tələbələrə təhsilin predmeti,tarixi və təhsil anlayışının fəlsəfi mahiyyəti tədris ediləcək.Həmçinin, tələbələr müxtəlif tarixi dövrlərdə mövcud olmuş təhsil sistemləri,nəzəriyyələri və bir sıra məşhur filosofların,elm adamlarının təhsil haqqında baxışlarıyla tanış olacaqlar.</td></tr>
<tr><td>Kursun məqsədləri</td><td colspan="2">Fənnin tədrisindəki məqsədlər aşağıdakılardır:<br><br>1) Tələbələrə təhsilin tarixi və fəlsəfəsi ilə bağlı ümumi biliklər vermək,təhsil haqqında müxtəlif nəzəriyyələrnən tanış etmək<br>2) Təhsilə tarixi və fəlsəfi baxımından düzgün yanaşmaq vərdişini tələbələrdə formalaşdırmaq</td></tr>
<tr><td>Təlim nəticələri</td><td colspan="2"><u>Gözlənilən nəticələri:</u><br>• Təhsilin tarixi və məşhur filosofların müvafiq fikirləri ilə bağlı ümumi bilikləri genişləndirir;<br>• Təhsilin fəlsəfi konsepsiyalarından çıxış edərək, təhsil məsələləri üzərində analitik və tənqidi düşüncə qabiliyyətinin formalaşdırılması, o cümlədən müstəqil şəkildə müvafiq yeni biliklərə yiyələnmək üçün koqnitiv zəmin yaradır;<br>• Yeni və Ən yeni dövrdə xarici ölkələrdə və Azərbaycanda elmi-pedaji fikrin inkişafının əsas mərhələlərini fərqləndirir;</td></tr>
</table>

| | | |
|---|---|---|
| | • Klassik pedaqoji irsin mütərəqqi ideyalarından təhsil sahəsindəki problemlərin həllində yaradıcılıqla istifadə edir;<br>• Dünya təhsil və pedaqoji fikir xəzinəsinə verdiyə töhfəyə görə öz millətiə hörmət hissinin formalaşmasını, bunun üçün təhsil-tərbiyə ənənələrinin keçmişi, bu günü haqqında pedaqoji fakt və hadisələri ümumiləşdirir;<br>• Yeni və Ən yeni dövrlərdə təhsilin inkişaf tendensiyalarını, hər bir dövrün spesifik xüsusiyyətlərini, filosofların və maarifçilərin əsərlərini ibtidai təhsilin inkişafı kontekstində izah edir. | |
| **Tədris metodları** | **Mühazirə** | + |
| | **Seminar** | + |
| | **Qrup müzakirəsi** | + |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Faiz (%)** |
| | **Davamiyyət** | **5** |
| | **Fəallıq** | **5** |
| | **Prezentasiya və ya esse** | **5** |
| | **Quizlər** | **15** |
| | **Aralıq imtahanı** | **30** |
| | **Final imtahanı** | **40** |
| | **Yekun** | **100** |
| **Qaydalar** | Fəallıq: Dərsin interaktiv qaydada keçirilməsi nəzərdə tutulur. Aktivliyin qiymətləndirilməsi üçün tələbələrin dərs müddətində həyata keçiriləcək diskussiyalarda, sual-cavablarda fəal iştirak etməsi, prezentasiya təqdimatı, keçirilən dərslər üzrə geniş araşdırmalar aparıb müzakirələrdə təqdim etməsi tələb olunur.<br>Plagiat haqqında:<br>Plagiat digər müəlliflərin yazılarına istinad etmədən onlardan olduğu kimi istifadə edilməsidir. Plagiat edən tələbələr sıfır (0) alacaq və cərimə olunacaqlar. Tələbələr esse mətnində başqa müəlliflərin yazılarından istifadə edərkən mütləq istinadlar göstərməlidirlər.<br>Quiz haqqında:<br>Quizlər semesterdə iki dəfə,tələbələrə yazılı olaraq üç açıq sual verməklə keçirələcək. Sualların məzmunu tələbələrə əvvəlcədən bildiriləcək. | |
| | **Dərsə davamiyyət və intizam qaydaları** Tələbələr Xəzər Universitetinin davamiyyət qaydalarına riayət etməlidirlər. Onlar xəstə və ya rəsmi icazə aldığı (dekanlıq tərəfindən təsdiq olunmuş formada) hallardan başqa bütün dərslərdə iştirak etməlidirlər. Hər üzrsüz səbəbdən buraxılan dərs saatı davamiyyətə ayrılan ballardan çıxarılacaq (hər 2 saat – 0,5 bal).<br>Üzürsüz buraxılan sinif saatların sayı 25%-dan cox olduqda tələbə yalnız fakültə dekanının razılığı ilə imtahana buraxıla bilər.<br>Dərsə gecikmək və dərsin gedişatına mane olmaq (söhbət etmək və qeyri-etik davranışlara yol vermək) qadağandır. Müəllimin dərsin gedişatına mane olan tələbələri dərsdən kənarlaşdırmaq və bununla bağlı müvafiq qeyd aparmaq səlahiyyəti vardır. | |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix (planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | 14.02.2024 | **Giriş: Təhsil anlayışı nədir? Təhsilə tarixi və fəlsəfi yanaşma** | 1) Mehmet Güntekin *Təhsil elminə giriş* səh. 78-90; 15-22;<br>2) Sadovnik AR et. al *Exploring education* pp. 14-16. |

| | | | |
|---|---|---|---|
| | | | Rüstəmov F. Pedaqogika tarixi səh.11-19. |
| 2. | 21.02.2024 | **İlkin sivilizasiyalarda və antik dövrdə elmi ideyalar** | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 21-52;<br>2) Mühazirə qeydləri |
| 3. | 28.02.2024 | **Qədim yunan-roma dövründə elm və fəlsəfə** | 1) Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 61-100<br>2) Mühazirə qeydləri |
| 4. | 06.02.2024 | **Orta əsrlər dövründə təhsilin əsas xüsusiyyətləri** | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 117-130.<br>2) Ornstein AC et.al *Foundations of education* pp. 78-84. |
| 5. | 13.02.2024 | **Xristianlıq və İslam dininin təhsil fəlsəfəsi** | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 105-114;133-180. |
| 6. | 27.02.2024 | **İntibah dövründə Avropada elm və təhsil** | Rüstəmov, F. *Pedaqogika tarixi* səh. 279-295.<br>2) Ornstein AC et.al *Foundations of education* pp. 84-90. |
| 7. | 04.04.2024 | **Yeni dövrdə Avropada təhsilin əsas xüsusiyyətləri və nümayəndələri** | 1) Ornstein AC et.al *Foundations of education* pp. 92-96.<br>Rüstəmov F. Pedaqogika tarixi səh 327-348<br>3) Mühazirə qeydləri |
| 8. | 11.04.2024 | **Con Lokk və onun biliyin öyrənmə üsulları** | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh.352-358.<br>2) Mühazirə qeydləri |
| 9. | | **Aralıq imtahanı** | |
| 10. | 18.04.2024 | **Jan Jak Russo və onun "Emil və ya tərbiyə haqqında" əsəri** | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 358-372<br>2) Mühazirə qeydləri |
| 11. | 25.04.2024 | **İmmanuel Kantın pedaqoqika haqqında elmi-fəlsəfi ideyaları** | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 402-410.<br>2) Mühazirə qeydləri |
| 12. | 02.05.2024 | **C. S. Mill və onun utilitarianizmi** | Mühazirə qeydləri |
| 13. | 16.05.2024 | **Con Dyui və onun təhsil metodikası** | 1) Rüstəmov F. *Pedaqogika tarixi* səh. 564-575.<br>2) Mühazirə qeydləri |
| 14. | 23.05.2024 | **Müasir dövrdə qlobal dünyada təhsil:əsas baxışlar,nəzəriyyələr** | 1) Rüstəmov F. Pedaqogika tarixi səh.563-582.<br>2)Mühazirə qeydləri |
| 15. | 30.05.2024 | **Ümumi təkrar və diskussiya** | |
| | | **Final imtahanı** | |